# Ad günün mübarək,

## 24 il ÖNCƏ, 10 İYUL 1991-ci il TARİXİNDƏ "İKİ SAH

### Keçmiş illərdən xatirələr











*O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi. Lakin "İki sahil" çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir. İndi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm.*

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV**



Vüqar Rəhimzadə
*"İki sahil" qəzetinin baş redaktoru*




**Bu günlər "İki sahil" qəzetinin kollektivi ikiqat sevinc yaşayır. Yaxın günlərdə milli mətbuatımızın 140 illik yubileyi qeyd olunacaq. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamına uyğun olaraq, bu gün paytaxt və bölgələrdə yubiley tədbirləri keçirilir, milli mətbuatımızın keçdiyi inkişaf yoluna nəzər salınır. Zəngin və şərəfli yol keçmiş milli mətbuatımız daim həqiqət carçısı kimi ictimaiyyətə dolğun məlumatları çatdırmaq missiyasını uğurla yerinə yetirir.**

Bu sevincimizə əlavə sevinc qatan digər mühüm hadisə isə qəzetimizin 24 yaşının tamam olmasıdır. 24 il əvvəl, 1991-ci il iyulun 10-da işıq üzü görən ilk nömrəsi ilə oxucularının görüşünə gələn "İki sahil" qəzeti ötən bu dövr ərzində əqidəsinə - dövlətçilik ideyalarının təbliğinə, azərbaycançılıq məfkurəsinin formalaşmasına sadiq qalaraq bu yolda inamla irəliləmişdir.

Təcrübədə özünü doğrultmuş belə bir deyim var ki, hər bir ölkənin milli mətbuat tarixində o mətbu orqan yaşamaq hüququ qazanır ki, xalqının, millətinin taleyüklü məsələlərinə dövlətçiliyin, milli maraqların qorunması, insanların arzu və məntiqi təklifləri baxımından mövqeyini bildirsin, baş verən hadisələrə cəsarətli yazıları, obyektv münasibəti və təfəkkürü ilə işıq salsın. "Vahid Azərbaycan uğrunda" amalı ilə yola çıxan, o sahilli, bu sahilli "İki sahil" məhz milli mətbuat tariximizdə varlığına möhür vuran qəzetlərdən olduğunu tarixi missiyasını uğurla yerinə yetirməsi ilə təsdiqləmişdir.

Azərbaycanda ictimai-siyasi hadisələrin gərgin olduğu illərdə nəşrə başlayan qəzet mürəkkəb proseslər burulğanında da öz prinsiplərinə sadiq qalmış, ümumxalq mənafeyindən çıxış edərək sağlam fikirli insanların daim müraciət etdiyi mətbu orqanı kimi tanınmışdır. Azərbaycanın müstəqillik tarixini öz tarixi hesab edən "İki sahil"də dərc olunan biri-birindən maraqlı yazıların ana xəttini də məhz ümummilli lider Heydər Əliyev ideyalarına sədaqət, vətəndaş mövqeyinin, Azərbaycan siyasi sisteminin formalaşması kimi ideyalar təşkil edir. Fəaliyyəti dövründə ictimai fikrin formalaşmasında əhəmiyyətli rolu və xidmətləri olan qəzet hadisələrə obyektiv yanaşma tərzi ilə seçildiyi kimi, peşəkar jurnalist ənənələrinin qorunmasına, formalaşmasına, jurnalist etikasının zənginləşməsinə də xüsusi diqqətlə yanaşmışdır.



Qəzetimizin xüsusi buraxılışları

Yarandığı gündən böyük dövlətçilik təcrübəsinə malik müdrik siyasi xadim, müasir müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyev ideyalarının yorulmaz təbliğatçısı kimi çıxış edən "İki sahil" hər zaman mütərəqqi ideyalara sadiq qalaraq mövqeyini xalqın maraqları naminə müəyyənləşdirmiş, xalqın əsrlər boyu formalaşdırdığı, qoruyub saxladığı milli mənəvi dəyərlərin qorunmasında da qətiyyət göstərmişdir.

Azərbaycanın üzləşdiyi çətin məqamlarda Naxçıvan Muxtar Respublikası (MR) Ali Məclisinin Sədri vəzifəsində işləyən Heydər Əliyevlə bağlı yazıların "İki sahil"də dərc olunması o dövrdə iqtidarda olanların xoşuna gəlməsə də, qətiyyət və cəsarət göstərən qəzetin kollektivi heç nədən çəkinməyərək Vətənə sədaqətini yazıları ilə bildirmişdir. O dövrdə ölkədə baş verən hadisələrə kəskin münasibət bildirən, qa-

# 24 yaşlı “İki sahil”!

## İL” QƏZETİNİN İLK SAYI İŞIQ ÜZÜ GÖRMÜŞDÜR


“İki sahil” qəzetinin kollektivi 20 illik yubileyində ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərkən



ragüruhçuların çirkin məqsəd və niyyətlərinin xalqa çatdırılmasında jurnalist peşəsinin məsuliyyətinə sadiq qalan “İki sahil”in kollektivinin əməyini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev söyləmişdir: **“O vaxt “İki sahil” qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi. Lakin “İki sahil” çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir. İndi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm.”**

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin bildirdiyi kimi, canından artıq sevdiyi Azərbaycanın müstəqilliyi naminə Ulu Öndərin göstərdiyi fədakarlığı, təzyiqlərə qarşı cəsarətlə sinə gərməsi, suverenliyimizin əbədiliyinin təminatı üçün yorulmaz fəaliyyəti demək olar ki, qəzetin bütün yazılarında əksini tapırdı. 1994-95-ci illərdə xarici ölkələrin və daxildəki antimilli qüvvələrin birgə xəyanəti ilə dövlətçiliyimizə qarşı törədilən qəsdlər zamanı da qəzetin kollektivi öz sözünü dedi. Paytaxtın Azadlıq meydanına toplaşan və ümummilli lider Heydər Əliyevin müdafiəsinə qalxan bir milyondan artıq ölkə vətəndaşı ilə birgə haqqın, ədalətin, ən başlıcası isə müstəqilliyimizin qarantı olan Ulu Öndərin ideyalarına qarşı yönələn qüvvələrə barışmaz mövqeyini özünün kəskin, cəsarətli yazıları ilə bildirdi.

Bu reallığı da xüsusi qeyd etməliyik ki, xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olaraq 91 nəfər ziyalının dahi şəxsiyyət Heydər Əliyevə ünvanladığı müraciət ilk dəfə məhz “İki sahil” qəzetində dərc edilmişdir. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunun bələdçisi olan, dövlətə və dövlətçiliyə xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul edən “İki sahil”in səhifələrində Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirildiyi gündən indiyədək atdığı hər addım, rayon və şəhər təşkilatlarının fəaliyyəti, gördüyü işlər ictimaiyyətə çatdırılır, ölkədə keçirilən hər bir seçki prosesində qəzet partiyanın tribunası kimi seçdiyi deviz əsasında hazırlıq işlərini, apardığı təbliğat-təşviqat kampaniyasını geniş şəkildə işıqlandırır. Yeni Azərbaycan Partiyasının tarixi müstəqil müasir Azərbaycanın tarixi kimi dəyərləndirilir. 1992-ci ilin noyabrın 21-də təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 650 mindən artıq üzvün birləşməsi məhz Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir. Fəaliyyətə başlandığı gündən tutduğu yola sədaqət nümayiş etdirən “İki sahil” Azərbaycanın, eyni zamanda ölkənin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunu, əldə etdiyi təcrübəni, uğurları dolğun şəkildə ictimaiyyətə çatdırır, bir daha bu reallığı, prinsipi ortaya qoyur ki, cəmiyyətin informasiya tələbatını ödəmək mətbu orqanın əsas məqsədi, vəzifəsi olmalıdır. Bu mühüm amili daim diqqət mərkəzində saxlayan “İki sahil” qəzeti bu gün Yeni Azərbaycan Partiyası fəallarının, xüsusilə partiyanın gənc üzvlərinin tribunasına çevrilmişdir.

Təbii ki, 24 illik bir yol qət edən “İki sahil”in fəaliyyətini bir yazı çərçivəsində şərh etmək qeyri-mümkündür. Ən əsası budur ki, tutduğun yola sadiq olasan, dövlətə, dövlətçiliyə xidməti əsas amal kimi qəbul edib, bu yolda inamla irəliləməyi bacarasan. “İki sahil” məhz bu uğura imza atıb. Çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yer tutmaq böyük uğurdur və təbii ki, qürurverici amildir.

⇨ Davamı 18-ci səhifədə

## Bizim kollektivimiz




















# Ad günün mübarək, 24 yaşlı "İki sahil"!

## 24 il ÖNCƏ, 10 İYUL 1991-ci il TARİXİNDƏ "İKİ SAHİL" QƏZETİNİN İLK SAYI İŞIQ ÜZÜ GÖRMÜŞDÜR



Türkiyənin keçmiş səfiri Hulusi Kılıç redaksiyamızın qonağı olub

⇨ Əvvəli 16-17-ci səhifələrdə

Azərbaycanın hər bir uğuru "İki sahil"in səhifələrində parladı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlanan inkişaf, tərəqqi bu gün Azərbaycana beynəlxalq baxışın yüksək səviyyədə formalaşmasında əsas rol oynayır. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın dünəninə, bu gününə və gələcəyinə xidmət edən inkişaf konsepsiyasını müəyyənləşdirdi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əsas diqqət göstərdiyi sahələrdən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması oldu. Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini dünya birliyinə çatdırmaq üçün xarici ölkələrə səfərlər edən ulu öndər Heydər Əliyev erməni yalanlarını faktlarla ifşa etdi. Azərbaycanın bir dövlət olaraq tanınmasında, beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmlənməsində mühüm rol oynayan o mühüm addımlar "İki sahil"də geniş şəkildə işıqlandırıldı, əsaslı şəkildə ictimaiyyətə çatdırıldı. Ordu quruculuğu istiqamətində aparılan islahatlar haqqında silsilə yazılarla çıxış edən qəzet, ayrı-ayrı partiyalara xidmət edən, əksər hallarda isə torpaqlarımızın işğalına səbəb olan bəzi dəstələrin cəbhə bölgələrindəki özbaşınalıqlarına qarşı çıxaraq bu barədə ictimaiyyətə informasiya verməkdən də çəkinmədi. Budur, dövlətə, dövlətçiliyə xidməti fəaliyyətinin önündə saxlayan "İki sahil"in 24 illik tarixinin vərəqlənən səhifələrində əksini tapan reallıqlar.

"İki sahil" qəzeti Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təsisçiliyi ilə fəaliyyət göstərən mətbuat orqanı olaraq daim səhifələrində ölkənin dinamik inkişafına stimul verən iqtisadi tərəqqini, bu inkişafı şərtləndirən amilləri ətraflı şəkildə oxucularına çatdırır. İqtisadiyyat hər bir inkişafın təməl daşıdır. Ölkə iqtisadiyyatının düzgün əsaslar üzərində qurulması isə dövlətin düşünülmüş və məqsədyönlü siyasəti ilə bağlıdır. Bu vəhdəti daim qoruyan "İki sahil" qəzeti 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"nin Azərbaycana qazandırdığı uğurların rəqəmlərin dili ilə geniş təhlilini verir, ictimaiyyətin informasiya tələbatını dolğun şəkildə ödəyir. Ölkə iqtisadiyyatına öz töhfələrini verən Dövlət Neft Şirkətinin dövlətimizin başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq modern, müasir tələblərə cavab verən güclü və çevik bir quruma çevrilmək istiqamətində atdığı addımların, Şirkətin müxətlif ölkələrdə həyata keçirdiyi investisiya layihələrinin uğurlu nəticələrinin, ayrı-ayrı strukturların gördüyü işlərin təbliğatçısına çevrilən "İki sahil" qəzeti daim səhifələrində informasiya bolluğunu artırmağa çalışır. Avropa dövlətlərinin enerjiyə tələbatının 35-40 faizinin ödənilməsində misilsiz payı olan BTC və BTƏ kimi neft-qaz layihələrinin davamçıları, "Şahdəniz"dən hasil olunan Azərbaycan qazını qitə ölkələrinə çatdıracaq TANAP, Cənub Qaz Dəhlizi, TAP kimi qlobal layihələr barədə təhlili yazılar qəzetin səhifələrində xüsusi yer tutur.



Flippinli qonaqlarla müsahibə





"Bakı-2015" birinci Avropa Oyunlarının çempionlarından Rəsul Çunayev və Ayxan Tağızadə ilə redaksiyamızda görüş

Bir məqamı da qeyd edək ki, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində neftçi əməyinin rolu ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev tərəfindən daim yüksək dəyərləndirilib. Ümummilli Liderin Sərəncamı ilə 20 sentyabrın neftçilərin peşə bayramı günü kimi təsis edilməsi də bu diqqətin bariz nümunəsidir. "İki sahil" qəzetinin hər il Neftçilər günü ərəfəsində Azərbaycanın neft-qaz sənayesində qazandığı uğurların geniş təhlilini özündə əks etdirən xüsusi buraxılış hazırlaması cəmiyyətin avanqard qüvvəsi olan çoxminli neftçilər ordusu tərəfindən böyük sevinc hissi ilə qarşılanır.

"İki sahil"in hər səhifəsində yer alan yazılar oxucunun informasiya tələbatının ödənilməsinə yardımçıdır. İctimai-siyasi, sosial-iqtisadi, mədəni, humanitar sahədə əldə olunan uğurlar obyektiv, dolğun şəkildə ictimaiyyətə çatdırılır. Bu gün ictimai-siyasi qəzet kimi fəaliyyətini yeni dövrün çağrışlarına uyğun davam etdirən "İki sahil" ümummilli lider Heydər Əliyev ideyalarının davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin son 11 ildə apardığı islahatların təbliğində öndə gedir. Dünya iqtisadi sistemində mövqeləri möhkəmlənən, dünyanı bürüyən maliyyə böhranı illərində də dinamik inkişafını davam etdirən, müasirləşən, sivilizasiyalararası məkan adlandırılan, Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycanda görülən cahanşümül işlər, aparılan islahatlar, keçirilən möhtəşəm beynəlxalq tədbirlər haqqında qəzetdə maraqlı yazılar dərc olunur, ölkə ictimaiyyətinə beynəlxalq aləmdə baş verən hadisələr operativ surətdə çatdırılır.







Qəzet həmişə olduğu kimi, bu gün də ölkəmizin tərəqqisinə, dünyada möhkəmlənən mövqeyinə qısqanclıqla yanaşan ermənipərəst dairələrə qarşı barışmaz mövqeyi ilə fərqlənir. "İki sahil" Azərbaycana qarşı bir mənbədən idarə olunan qarayaxma kampaniyasına barışmaz mövqeyini cəsarətlə bildirir. Ümummilli lider Heydər Əliyevin böyük müdrikliklə dediyi "Jurnalist əməyi qeyri-adi, olduqca böyük, zəhmətli, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir" sözlərini fəaliyyətinin əsas istiqaməti kimi daim diqqətdə saxlayan "İki sahil" qəzetinin yaradıcı kollektivi möhtərəm Prezidentimiz İlham Əliyevin müstəqil mətbuatın inkişafına göstərdiyi diqqət və qayğını gündəlik həyatında hiss edir.

⇨ Davamı 19-cu səhifədə



Koreyalı qonaq xoş təəssüratlarını bölüşərkən



Türkiyəli media nümayəndələri ilə səmimi söhbət

# Ad günün mübarək, 24 yaşlı “İki sahil”!

## 24 il ÖNCƏ, 10 İYUL 1991-ci il TARİXİNDƏ “İKİ SAHİL” QƏZETİNİN İLK SAYI İŞIQ ÜZÜ GÖRMÜŞDÜR


















⇨ Əvvəli 18-ci səhifədə

Qeyd etdiyimiz kimi, bir yazı çərçivəsində 24 ildə keçilən yolu geniş şəkildə şərh etmək mümkünsüzdür. Bu amili də xüsusi qeyd etməliyik ki, “İki sahil” eyni zamanda bir məktəb rolunu oynayır. Müstəqil Azərbaycanımızın 24 illik tarixinə bələdçilik edən “İki sahil” daim təkmilləşməni, yeniləşməni öz fəaliyyətində əsas xətt kimi qəbul edib. Müasirləşmə, yeniləşmə müasir dövrün əsas çağırışı kimi mətbu orqanların da qarşısına yeni-yeni məqsədlər, vəzifələr qoyur. “İki sahil”in günbəgün yeniləşən internet saytı, qısa müddətdir ki, fəaliyyətə başlamasına baxmayaraq geniş izləyici kütləsi qazanan “İki sahil” TV məhz bu reallığın təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında daim önə çəkilən “Əldə olunan uğurlarla kifayətlənməməliyik, daim irəli baxmalıyıq” tezisi “İki sahil” qəzetinin kollektivinin fəaliyyətinin önündə dayanır.

İllər bir-birini əvəzlədikcə, keçilən yola, bu yolda zəhməti olanların fəaliyyətinə düzgün dəyər vermək üçün daha geniş imkan yaranır. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, vaxtilə “İki sahil”də çalışan əməkdaşlarımız hazırda ayrı-ayrı dövlət strukturlarının mətbuat xidmətlərinin rəhbəri, həmçinin müxtəlif mətbu orqanların baş redaktorları vəzifələrində, həmçinin müxtəlif telekanallarda çalışırlar. Yazılı mətbuatda əldə olunan təcrübənin, formalaşan bazanın sonrakı uğurlarda oynadığı əhəmiyyətli rolu nəzərə alsaq, bu gün əməkdaşlarımızın “İki sahil”də əldə etdiyi bu bazadan televiziya kanallarında çalışarkən böyük bacarıqla istifadə etmələrindən fəxr hissi keçirmək olar. Uğurlar artdıqca, məsuliyyət də artır. Bu gün bu məqamı da böyük fəxr hissi ilə qeyd edə bilərik ki, “İki sahil” gənclərə geniş meydan açaraq, öz potensial imkanlarını ortaya qoyub, qələmləri ilə müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə onların öz töhfələrini vermələrinə şərait yaradır. Təbii ki, bu uğurlu addım qəzet rəhbərliyinin dövlətimizin siyasətinə uyğun olaraq, gənclərə diqqət və qayğısından qaynaqlanır. “İki sahil” məktəbindən bəhrələnənlərin sayı çox, uğurlarımız davamlı olsun!

Onu da qeyd edək ki, uğurlarımızın davamlılığı əməkdaşlarımızın əməyinin daim dövlətimiz tərəfindən yüksək dəyərləndirilməsi ilə müşayiət olunub. Bir qrup əməkdaşımız ayrı-ayrı vaxtlarda fəxri adlar və medallarla təltif olunublar.

Qısa təhlil fonunda bir daha bu fikri böyük inam və qətiyyətlə bildiririk ki, “İki sahil” tutduğu yola daim sadiq qalacaq, dövlətimizin azad mətbuatın inkişafı istiqamətində atdığı biri-birindən əhəmiyyətli addımların həyata keçirilməsinə dəstək olacaq, günbəgün qüdrətlənən, güclənən Azərbaycanla qürur duyub, uğurlu fəaliyyəti ilə gələcəyə inamla irəliləyəcək. Bizlərə bu inamı 24 illik tariximiz əsas yaradır. Bu əlamətdar hadisə münasibətilə kollektivimizə mənəvi dayaq, bizimlə yol yoldaşı olub, ildən-ilə artan sayı ilə qəzetimizə maraq və xoş münasibətini bildirən çoxsaylı oxucularımızı da təbrik edirik.

Qələminiz iti, sözünüz kəsərli olsun, əziz “İki sahil”çilər!

***“İki sahil”***





